ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA

# MÜBARİZ

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

• № 2 (4925) • 28 MART 2022-ci il • Qəzet 1932-ci ildən çıxır




## Prezident İlham Əliyevin Azərbaycan xalqına təbriki

Əziz bacılar və qardaşlar.

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

İkinci dəfədir ki, tarixi Zəfərimizdən sonra biz Novruz bayramını doğma Qarabağ diyarında qeyd edirik. Bilirəm, hər birimiz, xüsusilə keçmiş məcburi köçkünlər hər dəfə bayram ərəfəsində və bayram günlərində deyirdik ki, İnşallah, gələn il azad edilmiş torpaqlarda, Qarabağda Novruz bayramını qeyd edəcəyik və artıq bu, reallıqdır. İkinci dəfədir ki, bu gözəl bahar bayramını biz işğaldan azad edilmiş torpaqlarda qeyd edirik. Bu gün mən Novruz tonqalını burada - Suqovuşanda qaladım, qədim Azərbaycan diyarı olan Suqovuşanda. Keçən il isə Novruz bayramını mən Şuşa şəhərində, hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etmişdim və Azərbaycan xalqına müraciət etmişdim. Şadam və xoşbəxtəm ki, artıq bu, bir ənənəyə çevrilib və Novruz bayramını biz burada, doğma Qarabağ diyarında qeyd edirik.

Suqovuşan qədim Azərbaycanın tarixi yeridir. Azərbaycan xalqı bu ərazilərdə əsrlər boyu yaşayıb. Ancaq 1923-cü ildə doğma Qarabağ diyarımızda qanunsuz və heç bir əsası olmadan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Qarabağın gözəl, səfalı yerləri qondarma quruma daxil edilmişdi, o cümlədən Şuşa şəhəri və Suqovuşan qəsəbəsi. Bu, xalqımıza qarşı növbəti ədalətsizlik idi, növbəti düşmənçilik idi. Çünki Qarabağ, onun tarixi Azərbaycan xalqının adı ilə bağlıdır. Azərbaycan xalqı Qarabağda əsrlər boyu yaşayıb. Sadəcə olaraq, siyasi məqsədlər naminə uzun illər, sovet dövründə burada qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti fəaliyyət göstərirdi. Bildiyiniz kimi, sonra ermənilər xalqımıza qarşı işğalçılıq siyasətinə əl atdılar və 30 ilə yaxın müddətdə bizim doğma Qarabağımız və Şərqi Zəngəzurun bir hissəsi ermənilərin əlində idi. Buna son qoyulmalı idi və son qoyuldu. Biz gördük ki, heç bir danışıqlar, heç bir siyasi addımlar bizi məqsədimizə yaxınlaşdırmır. Biz görürdük və bilirdik, ancaq güclü, daha iradəli olmalıyıq ki, öz haqqımızı qoruyaq, tarixi ədaləti bərpa edək. Azərbaycan dövləti, Azərbaycan Ordusu, bütün Silahlı Qüvvələrimiz bu tarixi missiyanı 2020-ci ildə yerinə yetirdi. Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır.

Abadlıq və quruculuq işləri, o cümlədən Suqovuşan qəsəbəsində də geniş vüsət alıbdır. Bu gün burada bir neçə tədbirdə iştirak etmişəm, o cümlədən yaşayış binalarının bərpası, turizm zonalarının yaradılması. Bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq. Budur bugünkü Azərbaycanın reallıqları. Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi Zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq, ordumuzla fəxr edirik, insanlarımızla fəxr edirik. Bizə bu xoşbəxtliyi yaşadan gənclərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq.

Bu gün bu gözəl mənzərəli yerlərə baxdıqca bir daha görürəm, diyarımız nə qədər gözəldir, dağlarımız nə qədər əzəmətlidir. Bütün bu tarixi gözəlliyə biz gözəllik qatacağıq, zövq qatacağıq və burada azərbaycanlılar rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayacaqlar. Sülhün və təhlükəsizliyin təminatçısı Azərbaycan dövlətidir və Azərbaycan Silahlı Qüvvələridir.

Mən xoşbəxt adamam ki, əziz, doğma xalqıma işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbriklərimi çatdırıram. Bu əziz gündə bir daha bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm, bundan sonra da var gücümlə çalışacağam ki, Azərbaycan daim sürətlə inkişaf etsin, yüksələn xətlə getsin və qarşıda duran bütün vəzifələr icra edilsin. Qarabağ Azərbaycandır!

## Səyyar qəbullara start



Bu gün əminliklə qeyd edə bilərik ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yürüdülən dövlət siyasətinin əsasını vətəndaş amili təşkil edir. Ölkə rəhbərinin icra hakimiyyəti başçılarını, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərini qəbul edən zaman dövlət məmurları haqqında səsləndirdiyi fikirlər, onlara daim xalqın içində olmaları, icra başçılarına bütün kəndləri gəzmələri, sakinlərlə görüşmələri, vətəndaşların qayğılarını öz dillərindən eşitmələri, onların problemlərini yerində öyrənmələri, düzgün təhlil aparmaları barədə verdiyi tapşırıq və tövsiyələr bir daha onu sübut edir ki, dövlət hər zaman vətəndaş məmnunluğunu əsas götürür. Dövlət başçısının tapşırıq və tövsiyəsinə əsasən respublikamızın şəhər və rayonlarında sakinlərlə keçirilən səyyar qəbullar da məhz bu məqsədi daşıyır.

**Ardı 3-cü səhifədə**

## Goranboyda Novruz şənliyi



Goranboy şəhəri Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında Novruz bayramı ümumrayon tədbiri keçirildi. Tədbirdə rayon İcra Hakimiyyətinin Başçısı, rayonun digər rəhbər şəxsləri, rayonda fəaliyyət göstərən xidmət sahələrinin və qeyri-hökumət təşkilatlarının rəhbərləri, Şəhid ailələri və Qazilərimiz, rayon ictimaiyyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri, rayon mədəniyyət evləri və musiqi məktəblərinin kollektivləri iştirak etdilər.

Bayram təbrikində, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi altında Rəşadətli Azərbaycan Ordusu tərəfindən 44 günlük Şanlı Vətən müharibəsi ilə, torpaqlarımızın işğaldan azad edilməsindən sonra ərazi bütövlüyümüzün təmin olunmasını vurğulayan İcra Başçısı 30 ildən sonra ilk dəfə bütün torpaqlarımızda bayram tonqallarının qalandığını, güclü dövlət və qalib xalq kimi qürurla əsl bayram günlərini qeyd etdiyimizi diqqətə çatdırdı.





Bayram tonqalını Azərbaycanın Milli Qəhrəmanı Maşallah Abdullayev və Vətən Müharibəsi Qəhrəmanı Saleh Həsənov alovlandırdı. Tədbirdə mədəniyyət və incəsənət ustalarının ifasında bayram konserti, milli adət ənənələrimizi özündə əks etdirən folklor və milli mətbəximizin nümunələri, rayon Rəsm Qalereyasının təqdimatında rəsm sərgisi və idmançılarımızın müxtəlif növlər üzrə döyüş bacarıqları nümayiş etdirldi.

# 44 günlük müharibənin 43-cü günündə



Behbudovlar ailəsi Səfikürd kəndinin sayılıb seçilən, hörmətli ailələrindən biri olub. Bu ailədə 3 uşaq böyüyürdü. Səbinə, Tapdıq, Nofəl. Onların qayğısız, şən, xoşbəxt olmaları üçün ata və anaları Həmid və Gülbəniz xanım əllərindən gələni əsirgəmədilər. Onları tərbiyəli, cəmiyyətə layiqli övlad kimi böyütdülər. Böyük övladları olan Səbinəyə toy edib gəlin köçürdülər. Qardaşları Tapdıq və Nofəl qol götürüb bacılarının toyunda oynadılar .

Ailə çox xoşbəxt idi. Ancaq... Evin böyük oğlu Tapdıq öz avtomobilində qəza törətdi və həyatını itirdi. Sanki ata-ananın beli qırıldı, bacı pərişan oldu.






Bu yazımın qəhrəmanı kiçik qardaş Nofəl o zaman hərbi xidmətdə idi. Qardaşının qara xəbərinə özünü qaranəfəs çatdırdı. Yaşının az olmasına baxmayaraq ilk o özünü ələ aldı. Ata-anaya, bacıya təskinlik verdi. Başınızı dik tutun, mən varam dedi.

Dərd gələndə batmanla gəlir deyirlər. Tapdığın qırxı təzə çıxmışdıki müharibə başladı. Vətən müharibəsi. Və son beşik qardaş Nofəl elə hərbi xidmətdən birbaşa müharibəyə yollandı.

Behbudov Nofəl Həmid oğlu 7 iyun 2001-ci ildə Goranboy rayonunun Səfikürd kəndində doğulub. 2007-ci ildə Səfikürd kənd tam orta məktəbinin birinci sinfinə daxil olub. Oxuduğu 11 il ərzində həm müəllimlərinin həm də sinif yoldaşlarının sevimlisi olub. Həm yaxşı oxumağı ilə həm də ictimai işlərdə fəallığı ilə seçilib. Bu sözləri Nofəlin sinif rəhbəri Tamaşa Ələsgərova qürurla dedi. Orta məktəbi bitirdikdən sonra 2018-ci ildə Gəncə Qızıl Əllər kursunda diş texniki fakültəsinə daxil olur. 1 il oxuduqdan sonra 2019-cu ilin iyul ayında hərbi xidmətə gedir. Hərbi xidmətin 3-cü ayında təlimlərədə və məşqlərdə yüksək nəticələr göstərdiyinə görə Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olur. Xidmətinin bir ili ərzində bütün xüsusi təlimlərin uğurla öhdəsindən gəlir, hərbi hissədən ailəyə təşəkkür məktubu göndərilir.

Sentyabrın 27-si müharibənin elə ilk dəqiqəsindən döyüşlərə atılan Nofəlin digər yoldaşları kimi bir amalı, bir arzusu vardı. 30 illik bir işğala son qoymaq, viran qoyulmuş torpaqlarımızı erməni qəsbkarlarından azad etmək, xalqımızın tapdanmış qürurunu özünə qaytarmaq və düşmənə həddini bildirmək.

Nofəlin bacısı Səbinə ilə söhbət edirəm. Səbinə həm qürurla həm də kövrələrək qardaşı haqqında danışır. Səbinə deyir.

--Böyük qardaşımı itirmişdik. Nofəl bizim güvənc yerimiz, arxa dayağımız, gözümüzün tikənəcəyi idi. Ilk döyüşü Kəlbəcər ugrunda olmuşdu. Kəlbəcərdə bir neçə əhəmiyyətli posdu onların dəstəsi alıb. Alınan torpaqlara ilk ayaq basanlardan olub. Sonra onlar Füzuli uğrunda döyüşüblər. Füzuliyə gedərkən kəndimizsin ərazisindən keçirdilər, qonşumuz orada Nofəli görüb tez bizə xəbər verdi, və biz burada Nofəlnən görüşdük. O, bizi arxayın etdiki tezliklə bütün torpaqlarımızı azad edəcəyik, anamın göz yaşını silərək dediki ana, ağlama, sən həmişə mənimlə fəxr edəcəksən.

Füzuli uğrunda ağır döyüşlər başladı. Hər kəndin, qəsəbənin alınması əsgərləri daha da ruhlandırırdı. Füzuli işğaldan azad olundu və ilk bayrağı Füzuliyə Nofəl Behbudov sancdı.

Səbinə deyir.

44 gün ərzində cəmi bir neçə dəfə zəng edib. Hər dəfə bizə darıxmayın hər şey yaxşı olacaq deyirdi. Son telefon danışığımız 23 oktyabda oldu. Anamla danışanda dedi ki, ana özünüzdən muğayət olun. Hamının arzusunda olduğu gözəl cənnətimiz olan torpağımıza gedirik. Atamla danışığında deyib ki özünüzə yaxşı baxın. Hər zaman dik durun, hər şey ola bilər. Sonra mənə zəng etdi, uşaqlarımı soruşdu, onlar dayıları ilə fəxr edəcəklər, qürur duyacaqlar dedi. Sonda isə, mamagil sənə əmanət, səndə allaha. Bu cür vidalaşdı hamımızla.

Qarşıda böyük, ağır döyüşlər vardı. Kəlbəcərdən başlayan döyüş yolu düz Şuşaya qədər davam edir. Şuşa Nofəl kimi igid oğulların sayəsində azad oldu. Əlverişsiz hava şəraitində, dağları yararaq, güllə atmadan, PUA-larsız, tanksız, topsuz azad etdilər Şuşamızı.

44 günlük müharibənin 43 gününə qədər ağır, şərəfli bir yol keçdi qəhrəmanım, Nofəlim. Qələbəyə bircə gün qalmış 8 noyabrda qovuşdu şəhadətə. Yaralı əsgər yoldaşını çıxarmağa gedəndə tuş gəldi düşmən gülləsinə.

Əvvəllər tək Behbudovlar ailəsinin, qohumların, dost- tanışlarının sevimlisi olan Nofəl indi milyonlaın sevimlisidi.

Səfikürd kənd Şəhidlər Xiyabanına hər gün onlarla insan gəlir. Qəhrəmanları yad edir, məzarları üstünə gül-çiçək düzür, ailəsini ziyarət edirlər. Nofəl kimi yüzlərcə oğullar canlarından keçdilər ki xalqımız firavan yaşasın, dövlətimiz qüdrətli olsun.

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin Sərəncamına əsasən Behbudov Nofəl Həmid oğlu Rəşadət ordeni, Vətən uğrunda medalı, Cəsur Döyüşçü medalı, Şuşanın azad olunması medalı, Kəlbəcərin azad olunması medalı, Xocavəndin azad olunması medalı və Hərbi Xidmətdə fərqlənməyə görə medalı ilə təltif olunub.

**Xuraman ABBASOVA.**

# Şəhid Əli Vaqif oğlunun ildönümü



Goranboy rayonu Qaradağlı kəndindən Vətən müharibəsi döyüşlərində ağır yaralanaraq komaya düşən və 2021-ci il martın 25-də şəhidlik zirvəsinə ucalan əsgər İsmayılov Əli Vaqif oğlunun ildönümü mərasimi keçirildi. Mərasimdə rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun digər rəhbər şəxsləri, Şəhid ailələri, Qazilər, bir qrup ictimai fəallar və kənd ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Öncə, Qaradağlı kənd qəbirstanlığında bütün şəhidlərimizin məzarı ziyarət olundu, ruhlarına dualar oxundu və xatirələri etiramla anıldı, sonra isə İsmayılov Əli Vaqif oğlunun ailəsi evində ziyarət edildi.

# Şəhidlərin xatirəsinə



Şəhidlərimizin xatirəsini əbədiləşdirmək üçün kəndlərimizdə parklar salınır, Abidə kompleksi yaradılır, xatirə bulağı çəkilir. Adlarına küçə verilir. Bu günlərdə isə Goranboy rayonunun Qaradağlı kəndində şəhidlərimizin xatirələrinin əbədiləşdirilməsi məqsədilə inşa edilən Şəhidlər Abidəsi Kompleksi və xatirə bulağı istifadəyə verildi. Açılış mərasimində rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun digər rəhbər şəxsləri, bir qrup ictimai fəallar, şəhid ailələri və qazilər iştirak etdilər.

# Şəhidin ailəsində



Novruz bayramı günlərində rayon rəhbərinin iştirakı ilə şəhid ailələri ziyarət olundu. Belə ailələrdən biri də Vətən müharibəsi şəhidimiz Aqşin Mehdi oğlu Quliyevin ailəsi oldu.

Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatı Anar Məmmədov, rayonun digər rəhbər şəxsləri və bir qrup ictimai fəallarla birgə Novruz bayramı ilə bağlı Bağçakürd kəndindən Vətən müharibəsi şəhidimiz Quliyev Aqşin Mehdi oğlunun ailəsini ziyarət etdi, digər şəhid ailələri və qazilərlə birgə bayram tonqalı qalandı.

# Tap Qaraqoyunlu kəndinin bayram sevinci

Vaxtı ilə düşmənlə təmas xəttində yerləşən və demək olar ki, sakinlərinin hər gün erməni silahlı birləşmələrinin odlu atəşləri təhlükəsi altında yaşayan Tap Qaraqoyunlu kəndində, Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və rəhbərliyi ilə, Rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda həyata keçirdiyi və dünya hərb tarixinə qızıl hərflərlə həkk olunmuş Şanlı Vətən müharibəsindən sonra ilk dəfə olaraq Bayram tonqalı qalandı.

Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev rayonun digər rəhbər şəxsləri, xidmət sahələrinin rəhbərləri və bir qrup ictimai fəallarla birgə Novruz bayramı ümumrayon tədbirləri şərçivəsində Tap Qaraqoyunlu kəndində oldu və ilk olaraq Vətən müharibəsi şəhidimiz Vəliyev Hidi Bəxtiyar oğlunun ailəsini ziyarət etdi. Sonra şəhid ailələri, qazilər və kənd ictimaiyyəti nümayəndələrinin iştirakı ilə, bayram tonqalı qalandı. 30 ildən sonra ilk dəfə olaraq, möhtəşəm Zəfər sevinci ilə yandırılan bu bayram tonqalı kənd sakinləri üçün yeni, azad və xoşbəxt həyatın başlanğıcı kimi bir xoş təəssürat yaratdı və Tap Qaraqoyunlular bu gözəlliyi bəxş edən Müzəffər Ali Baş Komandanımıza, Rəşadətli Ordumuza, Qazilərimizə dərin minnətdarlıqlarını, Şəhidlərimizin xatirəsinə böyük ehtiramlarını bildirdilər.



# Medlife Hospitalın təməlqoyma mərasimi





Goranboy şəhərində Medlife Hospitalın təməlqoyma mərasimi oldu. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı, rayonun digər rəhbər şəxsləri, yerli iş adamları, İmago şirkətinin rəhbərləri Cesur bəy və Altan bəy, Çin xalq respublikasından MİNDRAY şirkətinin beynəlxalq satış meneceri Yang Hang, rayon ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirakı etdilər. Tədbirdə çıxış edən İcra başçısı Məhərrəm Quliyev ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatların sahibkarlığın inkişafı üçün geniş imkanlar yaratdığını, Respublikamızın digər regionlarında olduğu kimi Goranboy rayonunda da sahibkarlığın inkişafı üçün əlverişli mühitin formalaşdığını bildirdi. İcra Başçısı bütün goranboyluları Novruz bayramı və bayram ərəfəsində Medlife Hospitalın təməlqoyma mərasiminin keçirilməsi münasibəti ilə təbrik etdi. Qeyd edək ki, Hospitalda ambulator stasionar, cərrahi, doğuş və təcili yardım sahələri xidmət göstərməsi və 232 nəfərin işlə təmin olunacağı nəzərdə tutulub. Ambulator xidmətlər üzrə ginekologiya, travmotologiya, lor, oftalmologiya, bütün laborator müayinələr, hər növ ultrasəs müayinələri və radiologiya fəaliyyət göstərəcək.

# Deputatlardan bayram sovqatı





Milli Məclisin deputatları Anar Məmmədov və Ağalar Vəliyev tərəfindən Novruz bayramı münasibətilə Goranboy rayonundan olan şəhid ailələrinə, qazilərə və aztəminatlı ailələrə bayram sovqatı təqdim olundu.

# Səyyar qəbullara start



Əvvəli 1-ci səhifədə

2 ildən artıqdır ki, məlum koronavirus (COVID-19) infeksiyasının yayılması səbəbindən şəhər və kəndlərdə keçirilən səyyar görüşlər dayandırılmışdı. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi karantin rejiminin tələb və tövsiyələri nəzərə alınmaqla 2022-ci ilin mart ayından etibarən səyyar görüşlərin keçirilməsi yenidən bərpa edilib.

Ölkə Prezidentinin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların qayğılarına xüsusi həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Goranboyda da daim diqqətdə saxlanılır. Əhalini narahat edən problemlərin yerlərdə birbaşa həlli və sosial əhəmiyyətli sifarişlərin müəyyən edilməsi məqsədilə mart ayından başlayaraq Goranboy Rayon İcra Hakimiyyəti başçısının şəhər və kəndlərdə keçirilən səyyar qəbullarına start verilib.

Uzun fasilədən sonra keçirilən növbəti səyyar görüş rayonun Boluslu kəndində olub. Rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilat, xidmət sahələri rəhbərlərinin, kənd sakinlərinin iştirakı ilə keçirilən səyyar görüşdə ölkə başçısı tərəfindən vətəndaşlara göstərilən diqqət və qayğıdan, əhalinin maddi rifah halının, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan uğurlu addımlardan danışılıb. 2021-ci ildə respublikamızda, eləcə də rayonda qazanılan uğur və nailiyyətlərə nəzər yetirilib.

Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev kənd sakinlərini salamlayıb, hər zaman olduğu kimi, bugünkü səyyar görüşün də əsas məqsədinin vətəndaşları narahat edən qayğıları, qaldırılan məsələləri, səslənən fikirləri dinləmək, həlli istiqamətində əməli işlər görmək, ehtiyac yarandığı halda aidiyyəti təşkilatlar, mərkəzi icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırmaq olduğunu vurğulayıb.

İcra başçısı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında respublikamızda koronavirus (COVID-19) infeksiyası ilə mübarizə sahəsində görülən işlərin bu gün də uğurla davam etdirildiyini qeyd edib. Məhz bu tədbirlər sayəsində əldə olunmuş nailiyyətlərə görə bu gün ölkəmizdə Operativ Qərargah tərəfindən xüsusi karantin rejimi çərçivəsində növbəti yumşalma tədbirləri barədə qərar qəbul edildiyini söyləyib.

2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən haqq savaşında qazandığımız tarixi Qələbədən söz açan icra başçısı bu qələbəni, qəhrəman xalq adını bizlərə bəxş edən Ali Baş Komandana, hərbçilərimizə, şəhidlərimizə, qazilərimizə borclu və minnətdar olduğumuzu vurğulayıb. Rayon rəhbəri Respublika Prezidenti İlham Əliyev tərəfindən şəhid ailələrinə və qazilərimizə göstərilən qayğının Goranboyda da hər zaman nümunə götürüldüyünü bildirib. Goranboyda bütün şəhidlərimizin, eləcə də Vətən müharibəsi şəhidlərinin daim yad olunacağını, şəhid ailələrinə olan qayğının bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Sonra Boluslu kənd icra nümayəndəsi Şəmsi müəllim və bələdiyyə sədri Manya xanım görülmüş işlər barədə məlumat verdilər.

Daha sonra vətəndaşların müraciətləri dinlənilmişdir. Ehtiyatda olan hərbiçi, polkovnik leytenant Firdovsi Məmmədov Qarqabağ kanalından Bolusluya gələn su xəttinin nasaz, qəzalı olmasını diqqətə çatdırdı və xahiş etdiki kəndtə yeni artezian quyusu qazılarsa təsərrüfatların suvarılmasında problem yaranmaz.

Şəfa Yusifova yeni məhlələrdə tikilən evlərə qaz çəkilişinə köməklik göstərilməsini xahiş etdi. Həqiqət Həsənova Boluslu məktəbibnin qəzalı vəziyyətdə olmasını diqqətə çatdırdı. Eyvazlılar kənd sakini Göyüş Nağıyev Eyvazlılar natamam kənd orta məktəbinin tam kənd orta məktəbinə keçilməsinə köməklik olunmasını, Rahil Məmmədov elektrik naqillərinin köhnə olmasını, yenilənməsini xahiş etdi.

Qaldırılan məsələlər barədə aidiyyatı qurumlara müvafiq tapşırıqlar verildi.

Kənd sakinləri aparılan tikinti-abadlıq işlərinə, həyata keçirilən layihələrə, əhaliyə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildirdilər.

**X.ABBASOVA.**

# 6 kəndi birləşdirən yolun tikintisindən



Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı əsasında, 14 min nəfər əhalinin istifadə etdiyi 6 kəndi birləşdirən 16 km Dəliməmmədli-Düzqışlaq-Bağçakürd-Dəyirmanlar-Azad-Nizami avtomobil yolunun tikintisi davam etdirilir. Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev və Milli Məclisin deputatı Anar Məmmədov aidiyyəti xidmət sahələrinin rəhbərləri ilə birgə, aparılan tikinti işləri ilə yerində tanış oldular.

# HƏRBİ HİSSƏDƏ NOVRUZ ŞƏNLİYİ



Goranboy rayon icra hakimiyyəti və mədəniyyət şöbəsinin birgə təşkilatçılığı ilə, rayon ərazisində yerləşən "N" saylı hərbi hissədə Novruz bayramı ilə bağlı tədbir keçirildi. Tədbirdə rayon icra hakimiyyəti başçının 1-ci müavini və digər vəzifəli şəxsləri, bir qrup ictimai fəallar, rayon mədəniyyət evinin incəsənət ustaları, Hərbi Hissənin rəhbər və şəxsi heyəti iştirak etdilər.

İncəsinət ustalarln ifasında bədii proqram nümayiş etdirildi və bayram tonqalı alovlandı.

# I Vitse - Prezidentlik İnstitutunun yaradılması çevik idarəçilik sistemi deməkdir

2016-cı ilin sentyabrın 16 da prezident İlham Əliyevin təşəbbüsü ilə I vitse-prezidentlik institutu yaradıldı. Bu o demək idi ki, idarəetmədə çeviklik və səmərəlilik artmış oldu. Bu vəzifəyə prezidentin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanın təyin olunması Azərbaycan dövlətçiliyi tarixinin mühüm hadisəsi idi.Həmin vaxt Mehriban Əliyeva Təhlükəsizlik Şurasının iclasındakı ilk çıxışında demişdir: "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyllərdə, dəyişikliklərdə, inkişafda Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz kiçik də olsa öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifəsindən asılı olmayaraq, insan öz yolunu peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır... Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

Mehriban bir ana olan Mehriban xanım Əliyeva həmişə cəmiyyətin içində olmağı, ehtiyacı olanlara kömək etməyi özünün ali vəzifəsi hesab edir. Azərbaycan mədəniyyətini bütün dünyaya göstərmək kimi ülvi bir işi həmişə uğurla həyata keçirir.

İstər təhsil, istər səhiyyə sahəsindəki uğurlar I vitse prezident Mehriban xanım Əliyevanın gündəlik iş prinsipidir.

İdmanın inkişafı, incəsənətimizin dünyada tanıdılması onun yorulmaz işinin əksidir.

Onun yüksək təşkilatçılıq bacarığı sayəsində 2017-ci ildə Bakıda IV İslam Həmrəylik Oyunları, 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilmişdir.

Heydər Əliyev fondunun prezidenti kimi üzərinə düşən bütün işlərin yüksək peşəkarlıqla həlli göz qabağındadır.

I vitse prezident Mehriban xanım Əliyevanın dünyanın bir çox ölkələrinin birinci xanımları və ya yüksək vəzifə tutan xanımları ilə keçirdiyi görüşlər xüsusi əhəmiyyət kəsb edir. YAP-ın birinci müavini kimi partiyanın çox böyük müsbət layihələr həyata keçirməsində Mehriban xanım Əliyevanın müstəsna rolu var.

Bunların bariz nümunəsidir ki, o ölkəmizin və xarici dövlətlərin yüksək ali orden və medalları ilə təltif olunmuşdur.

Dini dəyərlərə göstərdiyi qayğı Azərbaycanda və dünyanın digər ölkələrində xeyriyyəçilik tədbirlərinin keçirilməsinə misal ola bilər.

I ci vitse prezident Mehriban xanım Əliyevanın təhsilə göstərdiyi qayğı konteksində Heydər Əliyev fondunun təşəbbüsü ilə ölkəmizdə 3000 dən artıq təhsil müəssisəsi inşa və əsaslı təmir olunub.

Sağlamlığın qorunması istiqamətində beynəlxalq tədbirlər çərçivəsində H.Əliyev fondu Dünya Diabet Günü kampaniyasına qoşulmuş, əhalinin sağlamlığının qorunması xüsusilə uşaqların fiziki cəhətdən sağlam böyüməsinə lazımi səviyyədə diqqət yetirilməsi üçün "Talasse- miyyasız həyat naminə" layihəsini başlamışdır.

Bundan əlavə 2010-cu ildə H.Əliyev Fondu və UNİSEF-in birgə təşkilatçılığı ilə keçirilən anemiya və talassemiyya üzrə "Dəyirmi masa"da bu istiqamətdə bir çox mühüm problemlər müzakirə edilmişdir. Məhz bu xidmətlərinə görə Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 2007-ci ilin yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Ana, uşaq və ailə sağlam- lığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə Mehriban xanım Əliyeva bu beynəlxalq təşkilatın ali mükafatına layiq görülmüşdür.

İxtisasca həkim olanMehriban xanım Əliyeva insanların sağlamlığının ekalogiya ilə bilavasitə bağlı olduğunu yaxşı bilir. Məhz buna görə onun təşəbbüsü ilə Azərbaycanda geniş ekaloji layihələr icra edilir. "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində ümumilikdə ölkədə 650000-dən çox ağac əkilmişdir.

Onun milli dəyərlərə sadiqliyi xalqın gözündə rəğbət və sevgi ilə qarşılanır. Mehriban xanım Əliyeva öz fəaliyyətində hər zaman millətin dili, mədəniyyəti, tarixi və milli-mənəvi dəyərlərinə sadiqdir. O özünün çoxsaxəli fəaliyyətini bu amillər üzərində qurmuşdur. Bütün varlığı və əzmkar fəaliyyəti ilə Azərbaycançılıq İdealogiyasına xidmət edən Mehriban xanım Əliyeva dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir.

**FHN Aran Regional Mərkəzinin Maarifləndirmə sektoru**

# Şagirdlərin bahar sevinci



Artıq yurdumuza bahar gəlib. Baharın gəlişi ilə ana təbiət oyanır, torpaq canlanır, ürəklərdə sevinc, çöhrələrdə təbəssüm duyulur.

Novruz bayramı münasibətilə R.Əliyev adına Kəhrizli kənd tam orta məktəbində "Elimizə bahar gəlir" adlı tədbir keçirildi. Tədbiri giriş sözü ilə məktəbin direktoru Vətən müharibəsinin veteranı Ceyhun Paşayev açaraq iştirakçıları salamladı, bu tədbirin mənası, məzmunu haqqında ətraflı məlumat verdi. Sonra meydan şagirdlərə verildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Vətənimizin azadlığı və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş qəhrəman oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Al-əlvan şarlarla bəzədilmiş məktəbin foyesində bayram şənliyinin aparıcıları Fazilə Paşayeva, Ruhiyyə Cəfərova və Sahilə Çobanlı gələcəyimizin qurucularına xoş arzularını bildirdilər.

Ana torpaq, ana diyar
sən mənimsən.
Ömüm, günüm, ruhum, canım
Vətənimsən.

Bahar qızı-Nərgiz Əsgərlinin, keçəl-İbrahim Əhmədovun və kosa-Sabir Paşazadənin musiqili meydana gəlişi Novruz şənliyini daha da canlandırdı.

VII sinif şagirdlərinin Novruz, Bahar və Vətən haqqında söylədikləri şeirlər, bayatılar, oxuduqları mahnılar tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Gülçin, İlham, Cavid, Hüseyn Firəddin və başqaları milli rəqslərimizi məharətlə ifa etməklə hamını məmnun etdilər.

Məktəbin tarix müəllimi Aygül İsmayılovanın hazırladığı musiqili, əyləncəli bayram proqramı tədbir boyu davam etdi.

**İlqar ƏLİYEV, Kəhrizli kəndi.**

# İqtisadiyyatı güclü olan ölkə müharibədən hökmən qalib gəlməli idi

Azərbaycan iqtisadi sahədə necə deyərlər "iri" addımlarla irəlləyir.Həm neft sayəsində həmdə qeyri neft sahəsində ölkəmiz çox mühüm nailiyyətlər əldə edib

Ölkənin valyuta ehtiyatı müharibədən çıxmasına baxmayaraq artıb. Azərbaycanın xarici ticarət balansı artmaqda davam edir. Yəni ölkə üçün ixrac-idxalı üstələyib. Bunun nəticəsidir ki, manatın məzənnəsi bu günə qədər sabit olmaqda davam edir. Ölkəyə çoxlu xarici investor cəlb olunub. Bu ilin dövlət büdcəsi təxminən 30 milyard manatla hesablanacaq. Vergi yığımıda tam şəffaflıqla həyata keçirilir. İşçilərin əmək haqqları, pensiyalar, təqaüdlər, sosial müa- vinətlər artırılır.

Aqrar islahatların səmərəliliyi, ölkədə kənd təsərrüfatının dinamik inkişafını tənzimləyir. Azad olunmuş torpaqlarda geniş miqyaslı təsərrüfat işləri aparılır. Bütün bunlardan ruhlanan fermerlərə subsidyalar verilir ki, buda biznes mühitinə çox müsbət təsir göstərir.

Ölkədə şəhid ailələrinə və qazilərə mənzillər və fərdi evlər avtomobillər bağlışlanır. Buda dövlətin öz şəhid və qazilərinə olan rəğbətinin nümunəsidir.

Yol infrastrukturu inkişaf edir. 100 kilometrlərlə yeni yollar çəkilib. Bütün bunları gözü götürməyən mənfur ermənilər orada işləyən vətəndaşlarımıza zaman-zaman atəşlər açırlar.

Nə qədər mədəni irsimiz məhv olub. Hətta vəziyyət o yerə çatmışdır ki, ermənilər məscidlərə donuz bağlamaqdan belə çəkinmirdilər. Bəs bunu dünya ictimaiyyəti niyə görmürdü?! Bəs buna niyə dünya ictimaiyyəti öz münasibətini bildirmirdi?! Bütün bunlara baxmayaraq Şuşada, Ağdamda, Zəngilanda, Hadrutda, və s. neçə-neçə məscidlərin təməli qoyulub.

Azad olunmuş torpaqlarda aparılan işlərin şəffaf görülməsi günümüzün priaritet məsələsidir. Neçə-neçə şəhidin qan bahasına alınan torpaqların abadlaşdırılmasında korrupsiya və rüşvətxorluğa heç cürə yol verilməməlidir. Bu işdə ictimaiyyətində üzərinə böyük məsuliyyət düşür. Bütün bu işlərdə kadrlardan düzgün istifadə olunmalıdır. Azad olunmuş torpaqlarda xidmət edən hərbi qulluqçuların şəraitləri çox yüksək səviyyədə olmalıdır.

Bu gün Ermənistanda revanşis qüvvələr yenidən müharibəni qızışdırmaq istəyirlər. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: Onlar dəmir yumruqu yaddan çıxarmamalıdırlar. Ermənistanın sülh müqaviləsi bağlamaqdan başqa ayrı yolu yoxdur. Rusiya Federasiyasının prezidenti Vladimir Putinin dediyi kimi Ermənistan tərəfindən müharibənin yenidən başlanması onların intiharı olardı.

Azərbaycan artıq o ölkə deyilki, onunla ultimatum dilində danışılsın.

Ayıl, Ermənistan ayıl!

Sülh əslində bizdən çox sizə lazımdır.

**Aran Regional Mərkəzinin Maarifləndirmə sektoru**

# Baharda

Çiçəklər sayrışar, güllər rəqs edər,
Səhər nəsimində, axşam yelində,
Alov tək közərir xallı lalələr
Qayalar qaşında, dağlar belində.

Reyhanın, nərgizin, nanə gülünün,
Min ətri, qoxusu yayılır döşə.
Açıb süfrəsini qaya dibində
Mənə əl eyləyir nazlı bənövşə.

Şəlalə xirbədən millənib yerə
Bu çölə, bu düzə sözü var kimi.
Meyvə ağacları çiçəkləyəndə
Bağları bürüyüb bəyaz qar kimi.

Nəğməli, sözlüdür kükrəyən çaylar,
Quşların cəh- cəhi könül oxşayır.
Deyəsən səmada uçan durnalar
Bahar nəğməsini dünyaya yayır.

**İlqar SADİQ.**

ABUNƏ - 2022

2022-Cİ İLİN BİRİNCİ YARIMİLLİYİ ÜÇÜN

MÜBARİZ

qəzetinə abunə yazılışı davam edir

**ƏZİZ OXUCU,** inanırıq ki, sən "Mubariz" qəzetinə biganə qalmayacaq, bu qəzetin abunəçisi olacaqsan. Axı rayonda yeganə mətbu orqandır ki, sənə tanış olan insanlardan, onların uğurlarından, rayonda olan yeniliklərdən, abadlıq və quruculuq işlərindən səni agah edir, yaşadığın rayonun qayğı və problemlərindən xəbərdar edir.

Hər sayı bir tarix olan "Mübariz" qəzetinə, doğma qəzetinizə abunə olun.

"Mübariz"in abunəçisi olmaq üçün redaksiyamıza müraciət edin.

Qəzetimizə həm nəqd, həm də köçürmə yolu ilə abunə yazılmaq olar.

Bildiririk ki, "Mübariz" qəzeti bank hesablarını Kapital Bank ASC-nin Goranboy filialında aparılır.

Kapital Bank ASC-nin Goranboy filialı
Kod 200509
VÖEN 9900003611
Müxbir hesab:AZ 37 NABZ
01350100000000001944
SWİFT BİK AİİBAZ 2 x
"Mubariz" qəzeti redaksiyası
VÖEN 6100034821
Hesab N-si 38070019445000226150

# Basketbol yarışının final mərhələsi



Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Basketbol Federasiyasının təşkilatçılığı ilə 14 martdan 18 martadək keçirilən Basketbol yarışının rayon turunda final mərhələsinə yekun vuruldu.

Final mərhələsində 1-ci yerə oğlanlar və qızlar arasında M.Səfərov adına Qaradağlı kənd tam orta məktəbinin komandası, 2-ci yerə oğlanlar arasında Goranboy şəhər 1 saylı tam orta məktəbinin komandası, 2-ci yerə qızlar arasında D.Qasımov adına Qızılhacılı qəsəbə 1 saylı tam orta məktəbin komandası layiq görüldü.

Qalib komandalar diplomlarla təltif edildi.

**GORANBOY RAYON TƏHSİL ŞÖBƏSİ.**

REDAKTOR
Xuraman Vaqif qızı

Ünvanımız:2200 Goranboy şəhəri, İlham İsmayılov küçəsi, 31.
mubariz.goranboy@gmail.com
(022) 24-5-19-33
Mob: 051 443 23 60

Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 300

Təsisçilər Goranboy rayon İcra hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

"MÜBARİZ"
Sifariş 34
Qeydiyyat nömrəsi 490